QANUN № 01 (375), 2026, s. 131-139

**Əsgərxanov Ramazan Mahir oğlu,**
Türkiyə Respublikası Ankara Universitetinin Hüquq fakültəsinin Xüsusi hüquq kafedrasının
"Mülki hüquq" ixtisaslaşması üzrə II kurs magistrantı
E-mail: ramazanasgerkhanov@gmail.com

**UOT 347**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4053**

# "ŞƏXSİYYƏT HÜQUQLARININ MÜDAFİƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN 24.12.2025-Cİ İL TARİXLİ PLENUM QƏRARININ ELMİ-PRAKTİKİ TƏHLİLİ

***Açar sözlər:*** *şəxsiyyət hüquqları, mənəvi zərər, mənəvi təzminat, iki mərhələli metod, unudulmaq haqqı.*

***Ключевые слова:*** *личные (персональные) права, моральный вред, компенсация морального вреда, двухэтапный метод, право быть забытым.*

***Keywords:*** *personality rights, non-pecuniary damage, non-pecuniary compensation, two-stage method, right to be forgotten.*

### I. Şəxsiyyət hüquqlarının müdafiəsi zərurəti

**Şəxsiyyət hüquqları** anlayışının, əhatə dairəsinin müəyyən edilməsi məhkəmə təcrübəsi, mülki hüquq nəzəriyyələri üçün olduqca mühümdür. Azərbaycan Respublikası mülki hüquq nəzəriyyəsində şəxsiyyət hüquqlarına leqal anlayış verilməmişdir. Bu baxımdan Azərbaycan Respublikası Ali Məhkəməsinin 24.12.2025-ci il tarixli "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" Plenum Qərarını (bundan sonra – Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarı) şəxsiyyət hüquqlarının anlayışı, əhatə dairəsinin müəyyən edilməsi baxımından uğurlu hesab edirik. Doktrinada şəxsiyyət hüquqları dedikdə, cəmiyyət içərisində şəxsin hörmətini, onun şəxsiyyət kimi formalaşmasını şərtləndirən hüquqlar nəzərdə tutulur [8, s. 49]. Şəxsiyyət hüquqlarının əhatə dairəsi olduqca genişdir, onların hər birinin müəyyən olunması çətindir. Buna baxmayaraq Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında bir çox şəxsiyyət hüquqları, onların pozulması ilə bağlı hallar qeyd edilmişdir. Həmçinin bəzi hüquqlar fiziki şəxslərlə yanaşı, hüquqi şəxslərə də aid edilmişdir. Düşünürük ki, hüquqi şəxslərin mənsub olduğu bəzi Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında qeyd edilməsi istər mülki, istərsə də kommersiya mübahisələrinin həlli baxımından mühüm əhəmiyyət daşıyacaqdır.

Mənəvi zərər şəxsiyyət hüquqlarının pozulması ilə yaranır. Doktrinada qeyd edilir ki, mənəvi maraqlara vurulan zərərin zərər sayılmaması üçün heç bir əsas yoxdur [11]. Şəxsiyyət hüquqlarının zədələnməsi zamanı mənəvi zərərin meydana gəlməsi iki mərhələdə reallaşmaqdadır: birinci mərhələdə şəxsiyyət hüququ zədələnir və

bu zədələnmə müəyyən edilir; ikinci mərhələdə isə mənəvi zərər meydana gəlir. Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında qeyd edilən bütün şəxsiyyət hüquqlarını nəzərdən keçirməyimiz olduqca çətindir, lakin *unudulmaq haqqı, ailə münasibətlərindən, istehlak hüquq münasibətlərindən irəli gələn şəxsiyyət hüquqları, müqavilə hüquq münasibətlərində olan bəzi şəxsiyyət hüquqlarını* xüsusi olaraq qeyd etmək istərdik.

**A. Unudulmaq haqqı**

Rəqəmsal texnologiyanın, internetin inkişafı hüquq münasibətlərinə, təməl insan haqlarına, gizlilik hüququna ciddi təsir göstərir. Məhz unudulmaq haqqı sosial platformaların inkişafı ilə hüquq terminologiyasına daxil edilmişdir. Avropa İnsan Hüquqları Məhkəməsinin (bundan sonra – AİHM) qəbul etdiyi anlayışa görə, unudulmaq haqqı şəxsin mövcud vəziyyətinə təsir göstərən keçmiş məlumatların internet üzərindən və ya sosial platformalardan silinməsidir. Göründüyü kimi, Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında da eyni anlayış qeyd edilmişdir. Doktrinada unudulmaq haqqının anlayışı üzərinə bəzi görüşlər nəzərdən keçirilir [12, s. 592]. Bəzi müəlliflərə görə, unudulmaq haqqının anlayışında əskiklik vardır. “Hansı məlumatlar unudulmaq haqqı çərçivəsində nəzərdən keçirilməlidir?” sualı mübahisə predmetidir. Təbii ki, nəzəriyyələrdə və AİHM-in qərarında qeyd edilən anlayışın Plenumun sözügedən Qərarında əksini tapması təqdirəlayiqdir. Lakin hansı məlumatların bu haqqın təsir dairəsinə düşə biləcəyi qeyri-müəyyəndir. Düşünürük ki, bu cür məlumatların dairəsinin müəyyən edilməsi həm nəzəriyyə, həm də məhkəmə təcrübəsi baxımından qeyri-müəyyənliyi aradan qaldıracaqdır.

Unudulmaq haqqı gələcəkdə rəqəmsal miras hüququna da təsir edəcəkdir. Sual oluna bilər ki, nə üçün? Belə ki, rəqəmsal miras hüququ rəqəmsal aktivlərin vərəsələrə keçməsini tənzimləyən mülki hüququn yarımsahəsidir, daha dəqiq desək, vərəsəlik hüququnun internet mühitinin təsiri ilə formalaşan təzahür formasıdır. Təbii ki, rəqəmsal miras, onunla bağlı problemlər ayrıca mövzunun predmetidir. Lakin burada önəmli olan unudulmaq haqqının rəqəmsal miras baxımından dəyərləndirilməsi ilə bağlıdır. Türk miras hüququ nəzəriyyələrində qeyd edilir ki, miras qoyanın şəxsi dəyərləri hər zaman vərəsələr üçün əhəmiyyət daşıyır. Bu baxımdan 2 nəzəriyyə qeyd edilir: *miras qoyanın xatirəsini qorumaq nəzəriyyəsi, ölümdən sonra (post moral) şəxsi dəyərlərin qorunması nəzəriyyəsi* [4, s. 80]. Bizim də tərəfdarı olduğumuz nəzəriyyə ölümdən sonra miras qoyanın şəxsi dəyərlərinin qorunması nəzəriyyəsidir. Xatirəni qorumaq nəzəriyyəsi vərəsələrin şəxsi dəyərlərini qoruduğu halda, postmoral nəzəriyyə ölən şəxsin şəxsi dəyərlərini qorumağı hədəfləyir.

**B. Ailə münasibətlərindən irəli gələn şəxsiyyət hüquqları**

Ailə hüquq münasibətlərindən irəli gələn şəxsiyyət hüquqlarının sözügedən Qərarda tənzimlənməsi bu münasibətlərdə yaranan hüquqların pozulması və mənəvi təzminatın müəyyən edilməsi baxımından olduqca mühümdür. Ailə hüquq münasibətlərinin predmetinə daxil olan ər-arvad arasında münasibətlərin kəskinləşməsi, xəyanət və boşanma kimi hallarda da mənəvi təzminatın tələb edilə biləcəyi mülki hüquq nəzəriyyələrində xüsusi olaraq qeyd edilir [8]. Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında ər-arvad arasında şəxsiyyət hüquqları ayrı-ayrılıqda sadalanmışdır: ər-arvadın ailə münasibətlərindən doğan hüquq bərabərliyi, ailə daxilində qarşılıqlı yardım və hörmət gözləmək hüququ, sərbəst surətdə soyad, məşğuliyyət, sənət seçmək kimi hüquqların pozulması, ailə daxilində cinsi münasibətlərin zədələnməsi də mənəvi zərərin yaranmasına səbəb olmaqdadır. Göründüyü kimi, sadalanan hüquqlar nəticə olaraq ər-arvad arasında bir-birlərinə qarşı sədaqətli olmağı, qarşılıqlı hörmətin qorunmasını təsdiq

edir. Türkiyə Ali Məhkəməsinin qəbul etdiyi bir qərarı qeyd etmək istərdik. Belə ki, Türkiyə Ali Məhkəməsi (Yargıtay) Plenumunun 24.03.2010 tarixli 4-129/173 sayılı qərarında qeyd edilir ki, ər-arvad arasında bir-birlərinə qarşı sədaqətli olmaq öhdəliyi vardır [13].

**C. İstehlak hüquq münasibətlərindən irəli gələn şəxsiyyət hüquqları**

Müasir mülki hüququn aktual problemlərindən biri də istehlakçı hüquqlarının pozulması ilə bağlıdır. İstehlakçı hüquqlarının ayrıca hüquq sahəsi olub-olmaması ilə bağlı doktrinada ciddi fikir ayrılıqları mövcuddur [10, s. 49]. Qənaətimizcə, istehlakçı hüquqları mülki hüququn, xüsusən də öhdəliklər hüququnun predmetinə daxildir. Ümumiyyətlə, istehlakçı hüquqlarının qorunması ilə bağlı ayrıca normativ hüquqi tənzimlənmənin olması vacibdir. Çünki istehlakçılarla satıcı və ya icraçı arasında münasibətlər daha çox mülki hüquqi xarakterlidir. Misal olaraq, istehlakçı şəxsi ehtiyaclarını ödəmək məqsədilə satıcı ilə alqı-satqı müqaviləsinə daxil olarsa, bu zaman öhdəlik hüququnun xüsusi müddəaları işə düşəcəkdir, çünki tərəflər arasında müqavilə bağlanacaqdır, beləcə öhdəlik hüquq münasibətlərinin xüsusi növü olan müqavilə hüquq münasibətləri yaranacaqdır. İstehlakçı qüsurlu mala görə, qüsurlu xidmətə görə məruz qaldığı maddi və ya mənəvi zərərin əvəzini tələb etmək hüququna sahibdir. Düşünürük ki, Qərarda istehlak hüquq münasibətləri baxımından istehlakçıların qorunması ilə bağlı tənzimləmələrin əks olunması istehlakçı hüquqlarının gələcək inkişafı üçün olduqca vacibdir.

**D. Müqavilə hüquq münasibətlərindən irəli gələn mənəvi zərər**

Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında müqavilə hüquq münasibətlərində mövcud olan bəzi prinsiplər qeyd edilməmişdir. Müqavilə hüquq münasibətləri baxımından müqavilə azadlığı prinsipi mühüm rol oynayır. Doktrinada müqavilə azadlığı prinsipi daxilində bir neçə prinsip də nəzərdən keçirilir: müqavilə tərəfini seçmək, müqaviləni dəyişdirmək və ya xitam etdirmək, müqavilənin şərtlərini müəyyən etmək, müqavilənin bağlanması formasının müəyyən edilməsi azadlıqları [5, s. 353-362]. Növbəti olaraq etimad prinsipini qeyd edək. İsveçrə hüquq ədəbiyyatlarında güvən ayrıca hüquqi münasibət olaraq qeyd edilir, həmçinin məsuliyyətin tək müqavilədən əmələ gəlmədiyi də bildirilmişdir [12, s. 10]. Məhz müqavilənin bağlanmasından öncə tərəflər arasında yaranan güvən tərəflər üzərinə məsuliyyət yükləməkdədir. Görüşümüzə görə, məhz etimadın sarsıdılması da mənəvi zərərə səbəb olur.

Müqavilə hüquq münasibətləri baxımından digər mühüm prinsip vicdanlılıq prinsipidir. Belə ki, hüquq münasibətlərinin iştirakçıları öhdəliklərini icra edərkən və fəaliyyətlərini həyata keçirərkən vicdanlılıq prinsipinə riayət etməlidirlər. Türk və İsveçrə mülki hüquq ədəbiyyatlarında vicdanlılıq prinsipi ***dürüst davranma*** prinsipi olaraq qeyd edilmişdir. Azərbaycan mülki qanunvericiliyində vicdanlılıq prinsipi ayrıca prinsip olaraq qeyd edilməmişdir. Məhz AR MM-də əskini tapan tənzimləmə Alman Mülki Qanununa (BGB) uyğundur. Müqavilənin bağlanması zamanı tərəflər vicdanlılıq prinsipinə əməl etməlidirlər. Hər hansı müqavilə bağlanmazdan əvvəl tərəflər arasında bir neçə görüş həyata keçirilir, məhz bu görüşlərdə müqavilənin müzakirəsi zamanı tərəflər vicdanlılıq prinsipinə əməl etməlidirlər. Latın dilində ***culpa in contrahendo*** olaraq tanınan prinsip müqavilənin bağlanmasından əvvəl məsuliyyəti nəzərdə tutur ki, bu prinsip də vicdanlılıq prinsipi ilə qarşılıqlı əlaqədədir. Yəni tərəflər müqavilə danışıqlarını belə vicdanla həyata keçirməlidirlər. Vicdanlılıq prinsipinin pozulması da digər tərəfi mənəvi zərərə məruz qoya bilər. Bu baxımdan düşünürük ki, qeyd edilənlər həm məhkəmə təcrübəsinin, həm də mülki hüquq münasibətlərinin gələcək inkişafı yönündən mühüm əhəmiyyət kəsb edir.

**II. Mənəvi zərərin anlayışı və hüquqi xarakteristikası**

Mənəvi zərər və maddi zərər fərqləndirilməsi mülki hüququn öhdəliklər hüququ yarımsahəsinə aid edilir. Öhdəliklər hüququnun ümumi və xüsusi hissələri fərqləndirilməlidir. Mənəvi zərər və onunla bağlı təyin edilən mənəvi təzminat öhdəliklər hüququnun ümumi hissəsinə aid edilməkdədir, çünki bunlar qanundan irəli gələn öhdəliklərdir.

İsveçrə-Türkiyə mülki hüquq doktrinasında mənəvi zərərin anlayışı və hüquqi xarakteristikası ilə bağlı görüşlər qeyd edilmişdir. İlk olaraq bu görüşləri qısa dəyərləndirib, AR Ali Məhkəməsi Plenumunun 2008-ci il tarixli və Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarındakı anlayışları da dəyərləndirməyi daha məqsədəuyğun hesab edirik. İsveçrə-Türkiyə mülki hüquq nəzəriyyələrində ***subyektiv***, ***obyektiv***, ***qarışıq*** nəzəriyyələr qeyd edilir.

***Subyektiv nəzəriyyəyə*** görə, hüquqları pozulan şəxs fiziki və mənəvi iztirab keçirdikdə, yəni kədər, üzüntü, ağrı-acı hiss etdikdə, yaşamaq sevincini itirdikdə mənəvi zərər formalaşmış hesab olunur. ***Obyektiv nəzəriyyənin*** tərəfdarlarına görə, mənəvi zərər şəxsin qeyri-əmlak hüquqlarının pozulması nəticəsində onun varlığında meydana gələn obyektiv azalma və ya itki kimi xarakterizə edilir. Obyektiv azalma və ya itki dedikdə, şəxsin sosial münasibətlərində yaranan dəyişikliklər, iqtisadi vəziyyətində yaranan əskilmə nəzərdə tutulur. Məsələn, A adlı şəxs iş yerində seksual qısnamaya məruz qaldıqda, işə getmək istəməyə bilər, bu onun sosial münasibətlərində ümumilikdə həyatında dəyişikliklə nəticələnə bilər. Bu nəzəriyyənin tərəfdarlarına görə, mənəvi zərər "xarici pozuntu nəticəsində dəyən zərərdir". Üçüncü nəzəriyyə olan ***qarışıq nəzəriyyəyə*** görə, mənəvi zərər şəxsin qeyri-əmlak hüquqlarının pozulması nəticəsində onun daxili dünyasında yaranan ağrı-acı, üzüntü və iztirab, xarici varlığında isə yaranan obyektiv azalma ilə xarakterizə olunur [8, s. 14-20].

AR Ali Məhkəməsi Plenumunun **"Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 03.11.2008-ci il tarixli Qərarında (bundan sonra 2008-ci il tarixli Plenum Qərarı) qeyd edilmişdir ki,** *"mənəvi zərər" insanın anadangəlmə və ya qanun əsasında ona mənsub olan şəxsi qeyri-əmlak xarakterli hüquq və azadlıqlarının, habelə əmlak hüquqlarının pozulması nəticəsində* ***mənəvi sarsıntı və iztirab*** *keçirməsini ifadə edir.* Həmçinin sözügedən Qərarda da mənəvi zərərə oxşar şəkildə anlayış verilmişdir: *mənəvi zərər – fiziki şəxsin şəxsiyyət hüquqlarının pozulması nəticəsində keçirdiyi* ***sarsıntı və (və ya) iztirabdır.*** Göründüyü kimi, AR Ali Məhkəməsi Plenumu mənəvi zərərlə bağlı subyektiv nəzəriyyəni qəbul etməkdədir. İsveçrə hüquq ədəbiyyatlarında da mənəvi zərər duyğu zərəri olaraq qəbul edilməkdədir [6, s. 531], lakin Türk mülki hüquq ədəbiyyatlarında isə qarışıq nəzəriyyə qəbul edilməkdədir. Bizim görüşümüzə görə, mənəvi zərər şəxsdə həm ağrı-acı, iztirab, sarsıntı əmələ gətirir, həm də xarici görünüşündə dəyişiklik yaradır. Bu baxımdan AR Ali Məhkəməsinin Plenumunun mənəvi zərərə verdiyi anlayışla razı deyilik.

**III. Mənəvi təzminatın məqsədləri, hesablanması metodları və müəyyən edilməsi xüsusiyyətləri**

**A. Mənəvi təzminatın məqsədləri**

Mənəvi təzminatın məqsədlərinə cəza, məmnunluq, kompensasiya, çəkindirmək, sosial dəstək, zərərin qarşısının alınması məqsədləri aid edilir. Əvvəlki İsveçrə Federal Məhkəməsinin qərarlarında mənəvi təzminatın ***cəzalandırma*** və ***məmnunluq*** məqsədləri qeyd edilmişdir [8, s. 25]. Türk Hüquq nəzəriyyəsində geniş yayılan məqsədlərə ***kompensasiya***, ***məmnunluq***, ***cəzalandırma***, ***bərabərlik yaratmaq*** aid edilir.

***Kompensasiya*** məqsədinə görə, mənəvi zərər maddi zərərdən fərqləndirilməlidir və mənəvi təzminat bir miqdar məbləğ ilə ödənilməlidir.

Məmnunluq duyğusu yaratmaq məqsədinə görə, mənəvi təzminat zərər görən şəxsdə bir ***məmnunluq duyğusu*** yaratmalı, onun istər daxilində yaranmış sarsıntı, iztirab, üzüntünü, istərsə də xarici görünüşündə yaranmış olan dəyişikliyi aradan qaldırmaq məqsədinə xidmət etməlidir. Türkiyə Ali (Yargıtay) Məhkəməsi də öz qərarlarında xüsusi olaraq məmnunluq məqsədini qeyd edir. Yargıtay 4. Hüquq Dairəsinin 2022/8500 E. 29.05.2024/5412 tarixli qərarında qeyd edilir ki, hakim tərəfindən müəyyən edilən mənəvi təzminatın miqdarı ədalətli olmalıdır. Məhkəmə tərəfindən müəyyən edilən bu məbləğ mənəvi zərərə məruz qalan şəxsdə mənəvi hüzur yaratmalı və onda bir məmnunluq hissi formalaşdırmalıdır [16]. Digər məqsəd ***cəzalandırma məqsədi*** ilə bağlıdır. Bu məqsədi qeyd etməyi uğurlu hesab etmirik, çünki mülki hüquq cəzalandırma məqsədi daşımamalıdır.

Mənəvi təzminatın digər məqsədlərindən biri ***zərərin qarşısının alınması ilə*** bağlıdır, yəni mənəvi təzminatın bu məqsədi təqsirkarı daha diqqətli olmağa sövq etməkdir. AR Ali Məhkəməsinin 2008-ci il tarixli Plenum Qərarında qeyd edilir ki, mənəvi zərərin əvəzi bir qayda olaraq pulla müəyyən edilir və ödənilir. Göründüyü kimi, Ali Məhkəmə mənəvi təzminatın zərərçəkmiş şəxsdə ***məmnunluq duyğusunu artırmaq*** məqsədini qəbul etmişdir. Başqa sözlə, məhkəmələr zərərçəkmiş şəxsin əvvəlki həyat sevincini bərpa etməyə çalışmalıdırlar. Fikrimizcə, məhkəmələr mənəvi təzminatla bağlı qəbul etdikləri qərarlarında yuxarıda sadalanan məqsədlərdən hansını qəbul etdiklərini xüsusi olaraq qeyd etməlidirlər. Həmçinin "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" AR Ali Məhkəməsi Plenumunun 24.12.2025-ci il tarixli Qərarında mənəvi təzminatın əsas məqsədi zərərçəkənin pozulan mənəvi tarazlığının bərpası ilə yanaşı, zərərvuranı gələcəkdə eyni əməllərin təkrar törədilməsindən çəkindirmək olduğu qeyd edilmişdir. Göründüyü kimi, Ali Məhkəmə yenə də mənəvi təzminatın məqsədi ilə bağlı görüşünü dəyişməmişdir.

Düşünürük ki, Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarı əvvəlki Plenum Qərarından fərqli olaraq mənəvi təzminat anlayışına daha geniş yanaşmaqdadır. Sual oluna bilər ki, nə üçün bu görüşdəyik? Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında qeyd edilir ki, *mənəvi təzminatın həcmi elə balanslaşdırılmalıdır ki, bu, bir tərəfin təzminat hesabına zənginləşməsinə, digər tərəfin isə kasıblaşmasına səbəb olmasın.* Plenum mənəvi təzminata zənginləşmə vasitəsi olaraq yanaşmır. Bu görüş Türkiyə Ali Məhkəməsi (Yargıtay) tərəfindən də qəbul edilmişdir. Türkiyə Ali Məhkəməsinin 4-cü Hüquq Dairəsi 2021/14891 E., 2022/3393 K. Qərarında qeyd edir ki, mənəvi təzminat ***varlanma*** vasitəsi olmamalıdır, həmçinin mənəvi təzminat müəyyən edilərkən zərərçəkmiş şəxsin ağrı-acısını, iztirabını, üzüntüsünü qismən də olsa, aradan qaldırmalıdır [15].

**B. <u>Mənəvi təzminatın hesablanması metodları və müəyyən edilməsi xüsusiyyətləri</u>**

Əfsus ki, Azərbaycan Respublikasının hüquq nəzəriyyələrində mənəvi təzminatın hesablanması ilə bağlı hər hansı metodlar nəzərdə tutulmamışdır. İsveçrə, Türkiyə, Alman mülki hüquq doktrinasında fərqli metodlar qeyd edilmişdir. Bu metodlara ***klassik metodlar***, ***iki mərhələli metod***, ***iqtisadi analiz metodu*** aid edilir [8, s. 85].

Azərbaycan Respublikası Ali Məhkəməsinin 2008-ci il tarixli Plenum Qərarında qeyd edilir ki, mənəvi zərərin miqdarı işin konkret hallarından asılı olaraq məhkəmə tərəfindən müəyyən edilir. İşin konkret hallarının müəyyən edilməsi metodu Türkiyə Ali Məhkəməsi, İsveçrə Federal Məhkəməsi tərəfindən də qəbul edilir [6, s. 546]. İşin konkret hallarının müəyyən edilməsi ilə mənəvi təzminatın hesablanması mənəvi zərərin müəyyən edilməsi baxımından olduqca mühümdür. Mənəvi zərərin müəyyən edilməsi zamanı işin halları məhkəmə tərəfindən nəzərə alınma-

lıdır Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında qeyd edilir ki, məhkəmələr zərərçəkmişin keçirdiyi mənəvi sarsıntı və (və ya) iztirabların ağırlığını, onun (o cümlədən zərərvuranın) fərdi xüsusiyyətlərini, zərərçəkən və zərərvuran şəxslərə aid xüsusiyyətlər, pozulmuş şəxsiyyət hüquqlarının növü, hüquqazidd əməlin xarakteri, ağırlıq dərəcəsi və nəticələri, törədildiyi şərait, pozulmuş hüquqlara görə təyin edilən təzminat məbləğinin mütənasibliyi və işin faktiki hallarından asılı olaraq ədalətli kompensasiyanın müəyyən edilməsi üçün zəruri olan digər meyarlar nəzərə almalıdırlar. Təbii ki, halların hər birinin ayrı-ayrılıqda sadalanması olduqca çətindir. Çünki şəxsiyyət hüquqlarının pozulması ilə bağlı yaranan mənəvi zərərin əvəzinin ödənilməsi ilə bağlı baxılan iddialar daha çox xüsusi xarakterdədir, yəni mənəvi zərərlə bağlı hər bir işin halları fərqlidir.

Mənəvi zərərin müəyyən edilməsi və mənəvi təzminatın hesablanması baxımından, aşağıdakı amillərin nəzərə alınması məqsədəuyğundur: mənəvi zərərin, pozulmuş hüquqların növü, ağırlığı, pozulmuş hüquqların, zədələnmiş dəyərlərin şəxsdə yaratdığı təsir, bu təsirin müddəti, pozulmuş hüquqların, zədələnmiş dəyərlərin şəxsin sosial həyata, normal həyatına yenidən dönə bilmə qabiliyyətinə təsiri, zərərçəkənin yaşı, işləyə bilmə gücünün və xarici görünüşünün zərər görməsi, zərərin dərəcəsi, zərər vuran şəxsin təqsirinin dərəcəsi, mənəvi təzminatın ödənilməsinin zərərçəkən şəxsin ağrı-acısının, iztirabının, üzüntüsünün azalmasına təsiri, tərəflərin sosial və iqtisadi vəziyyətləri. Həmçinin Türk hüquq ədəbiyyatlarında bəzi müəlliflər, şəxsin cəmiyyətində olan işgüzar nüfuzunun və sosial statusunun da mənəvi təzminat miqdarının müəyyən edilməsində nəzərə alınmalı olan hallardan biri kimi qəbul edir [9]. Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında da bu görüş öz əksini tapmışdır. Belə ki, zərərçəkənə aid xüsusiyyətlərdən biri də onun nüfuzudur. *Fiziki şəxsin nüfuzuna təsir edən xüsusiyyətlərinə onun təhsil səviyyəsi, peşə və vəzifəsi, xidmətlərinə isə sosial-iqtisadi, ictimai-siyasi və mədəni fəaliyyətini aid etmək olar.*

Mənəvi təzminatın hesablanması metodlarından biri də ***əmsal qərarların müqayisəsi*** və ona uyğun tərtib edilən ***cədvəl metodudur***. Bu metoda görə, hakim baş vermiş hadisənin xüsusiyyətlərini nəzərə alaraq daha əvvəl baş vermiş oxşar qərarlarla müqayisə edərək ona uyğun qərar verəcəkdir [8, s. 88]. Biz bu metodla razı deyilik. Çünki, yuxarıda da qeyd etdiyimiz kimi, mənəvi zərərlə bağlı iddialar xüsusi xarakter daşıyır. Hər bir hadisənin, halın, situasiyanın bir cədvəl daxilində müəyyən edilməsi qeyri-mümkündür.

Türk mülki hüquq ədəbiyyatlarında ***iki mərhələli metodla*** bağlı görüşlər vardır [8, s. 91-92]. Bu metoda görə, ilk mərhələdə mənəvi zərərə uyğun olaraq maksimum məbləğ müəyyən edilməlidir. Bundan sonra hadisənin xüsusiyyətlərinə və mənəvi təzminatın müəyyən edilməsi zamanı yuxarıda qeyd etdiyimiz kriteriyalara uyğun olaraq başlanğıc dəyər artırıla və ya azaldıla bilər. Fikrimizcə, iki mərhələli metodun Azərbaycan mülki hüquq nəzəriyyəsində və məhkəmə qərarlarında qeyd edilməsi mənəvi təzminatın hesablanmasında mühüm rol oynayacaqdır.

Fikrimizcə, məhkəmələr mənəvi zərər və mənəvi təzminatla bağlı qərarlarında hansı məqsədi qəbul etdiklərini qeyd etməlidirlər. Çünki mənəvi təzminat hakimin mülahizəsinə uyğun olaraq təyin edilir. Hakim mənəvi təzminat miqdarını təyin edərkən bunu qərarında əsaslandırmalıdır. Hətta nəzəriyyələrdə qeyd edilmişdir ki, hakim geniş bir mülahizə səlahiyyətinə sahibdir. Hakim tərəfindən qərarda "***mənəvi təzminat 5000 manat məbləğində müəyyən edilir***" şəklində bir ifadə əsaslandırma üçün yetərli deyildir. Bu görüş Ali Məhkəmənin sözügedən Plenum Qərarında da qeyd edilmişdir: *Məhkəmələr dəymiş mənəvi zərərə görə ərizəçiyə təyin etdikləri təzminatın həcmini qərarlarında kifayət*

*qədər əsaslandırmalıdırlar. Əsaslandırmanın olmaması ərizəçiyə qeyri-mütənasib, az təzminatın təyin edilməsi, pozuntunun adekvat və effektiv şəkildə aradan qaldırılması prinsipinə uyğun olmayaraq həll edilməsi ilə nəticələnə bilər.*

**IV. Zərərçəkənin yaxın qohumlarının ölüm və sağlamlığa ağır zərər vurulması hallarında mənəvi zərərə məruz qalması**

Yaxın qohumların da mənəvi zərərə məruz qalması ilə bağlı Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarında xüsusi tənzimləmə vardır. Belə ki, uşaqların və nəvələrin ölümü və ya sağlamlıqlarına zərər vurulması hallarında valideynlərin və ya nənə və babaların mənəvi təzminat tələbləri ilə bağlı iddialara baxılarkən zərərçəkmişin tək uşaq (nəvə) olması, valideynlərin yenidən uşaq dünyaya gətirəcək yaşda olub-olmamaları kimi amillər də diqqətə alınmalıdır. Valideynlərin ölümü və ya sağlamlıqlarına zərər vurulması halında uşaqların mənəvi zərərə məruz qala biləcəyi Qərarda qeyd edilmişdir. Bu zaman uşaqların mənəvi təzminat tələblərində onların ata və analarına möhtac yaşda olmaları, fiziki və ya əqli məhdudiyyətli olmaları əsas götürülməlidir. Hüquqazidd hərəkətdən zərərçəkmiş qardaş və ya bacıların mənəvi təzminat tələbinə baxılarkən onlar arasında emosional yaxınlığın dərəcəsi nəzərdən keçirilməlidir. Emosional yaxınlıq dərəcəsi Türkiyə Ali Məhkəməsinin Qərarında qeyd edilmişdir. Qərarın mahiyyəti ondan ibarətdir ki, qohumlar arasındakı münasibətlərdə onların yaxınlıq dərəcəsi, duyğu yaxınlıqları nəzərə alınmalıdır. Həmçinin yaxının ölümünü dərk edən, ağrı-acını dərindən hiss edən hər yaşda uşağın mənəvi təzminat tələb etmək hüququna malikdir.

Türk və İsveçrə hüquq nəzəriyyələrində ölüm və ya sağlamlığa ağır zərər vurulması hallarında şəxsin yaxın qohumlarının mənəvi təzminat tələb etməsi ilə bağlı qeyd edilir ki, mənəvi təzminatın müəyyən edilməsi üçün şəxsin qohumları ilə arasındakı yaxınlıq dərəcəsi olub-olmaması və bu pozuntuların yaxın qohumda hansı dərəcədə iztirab, üzüntü, ağrı-acı yaratması dəyərləndirilməlidir [6, s. 546].

İsveçrə hüquq nəzəriyyələrində bununla bağlı ***dərəcələndirmə nəzəriyyəsi*** tətbiq olunur [8, s. 245]. Bu nəzəriyyəyə görə, qohumunun ölümündən ilk növbədə mərhumun yaxın ailəsi ciddi mənəvi zərər çəkir. Bu baxımdan mərhumun həyat yoldaşının, uşaq öldükdə mərhumun valideynlərinin, valideyn vəfat etdikdə isə övladlarının mənəvi təzminat tələb etmək hüququ vardır. Dərəcələndirmə nəzəriyyəsi qohuma veriləcək təzminatın miqdarını da müəyyən edir. Mənəvi zərərin ən yüksək məbləği mərhumun həyat yoldaşının xeyrinə, ikinci növbədə ölmüş uşağın valideynlərinə, üçüncü isə valideynlərin ölümü ilə əlaqədar mərhumun övladlarının xeyrinə müəyyən edilməlidir.

Göründüyü kimi, Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarını mülki hüquq nəzəriyyələri üçün xüsusi əhəmiyyət daşıyacaqdır.

**V. Nəticə**

Azərbaycan Respublikası mülki qanunvericiliyində mənəvi zərər və mənəvi təzminat institutları ətraflı şəkildə əksini tapmamışdır. Düşünürük ki, AR MM-də mənəvi zərərin leqal anlayışının qeyd edilməsi daha məqsədəuyğun olardı. AR Ali Məhkəməsi tərəfindən mənəvi zərərə verilən anlayış subyektiv nəzəriyyəyə uyğundur. Fikrimizcə, mənəvi zərərin qarışıq nəzəriyyəyə uyğun leqal anlayışının verilməsini məqsədəuyğun hesab edirik. Çünki biz mənəvi zərəri yalnız duyğu zərəri olaraq qəbul etmirik, həmçinin zərərçəkən şəxsin xarici görünüşündə meydana gələn əskilmə olaraq qəbul edirik. Xarici görünüşdəki əskilmə isə şəxsin sosial əlaqələri, iqtisadi vəziyyəti ilə bağlı ola bilər.

İkinci olaraq, Ali Məhkəmənin 24.12.2025-ci il tarixli Plenum Qərarını həm qanunvericilik, həm də mülki hüquq nəzəriyyələri üçün mühüm hesab edirik. Belə ki, Qərarda mənəvi zərərin, mənəvi zərərin tərkibinə daxil olan elementlərin,

mənəvi təzminatın anlayışının əksini tapması mülki hüquq nəzəriyyələri üçün əhəmiyyət daşımaqdadır. Xüsusən də bir sıra şəxsiyyət hüquqlarının pozulması və ya zədələnməsi hallarında yaranan mənəvi zərərin xüsusiyyətlərinin qeyd edilməsi məhkəmə təcrübəsindəki anlaşılmazlıqların və qeyri-müəyyənliklərin aradan qalxmasına xidmət edəcəkdir.

Unudulmaq haqqı müasir dövrdə dəyişən və inkişaf edən hüquq münasibətlərinin məhsuludur. AR Ali Məhkəməsinin unudulmaq haqqı ilə bağlı mövqeyi gələcəkdə mülki hüquq nəzəriyyələri üçün istiqamətverici xarakter daşıyacaqdır. Belə ki, internetin, sosial platformaların inkişafı məhz unudulmaq haqqını hər zaman gündəmə gətirir. Həmçinin, fikrimizcə, bu haqq gələcəkdə rəqəmsal mirasa da təsir göstərəcəkdir. Çünki ölən şəxsin şəxsi dəyərləri və şəxsiyyət hüquqları onun vərəsələri üçün mühüm əhəmiyyət daşıyır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Ali Məhkəməsi Plenumunun “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” 3 noyabr 2008-ci il tarixli Qərarı. https://supremecourt.gov.az/az/media/xeberler/menevi-zererin-odenilmesi-barede-qanunvericiliyin-mehkemeler-terefinden-tetbiqi-tecrubesi-haqqinda-165
2. Azərbaycan Respublikasının Ali Məhkəməsi Plenumunun “Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında” 24 dekabr 2025-ci il tarixli Qərarı. https://supremecourt.gov.az/storage/pages/2308/sexsiyyet-huquqlarinin-mudafiesine-dair-plenum-qerari.pdf
3. Azərbaycan Respublikası Mülki Məcəlləsi. – Bakı: Hüquq Yayın Evi, – 2018.
4. Eşref Can Gürbüz. Dijital Miras. – Ankara, – 2024. – 167 s.
5. Fikret Eren. Borçlar Hukuku Genel Hükümler. – Ankara, – 2024. – 1511 s.
6. Franz Werro. Sorumluluk Hukuku. İstanbul. 2025. 645 s.
7. Geraldine Mbah. Data privacy and the Right to be Forgotten. World Journal of Advanced Research and Reviews. 2022. No. 2.
8. Gökhan Antalya. Manevi Zararın Belirlenmesi ve Manevi Tazminatın Hesaplanması, Monoqrafiya, İstanbul. 2017. 319 s.
9. Hasan Ayrancı. “Yargıtay Uygulaması işığında Manevi Tazminat Miktarının Belirlenmesinde Tarafları Sosyal İşgal Ettikleri Makam”. Hukuk,Ekonomik ve Siyasal Bilimler Aylık İnternet Dergisi, S. 50.
10. İlhan Kara. Tüketici Hukuku. – Ankara, – 2023. - 1719 s.
11. Litvinoff Saul. “Moral Damages”, Louisiana Law Review, V.38, N.1, 1977.
12. Rolf H Weber, Susan Emmenegger. Berner Kommentar Die Folgen der Nichterfüllung Art.97-109 OR.. Stämpfli Verlag AG,Bern, Switzerland. 2020. 815 s.
13. Seray Nalbantoğlu. Bir Temel Hak Olarak Unutulma Hakkı. Türkiye Adalet Akademisi Dergisi. Y.9, S. 35, 2018.
14. Yargıtay Hukuk Genel Kurulu. 2010/4-129. E. 2010/173 K. https://karararama.yargitay.gov.tr/
15. Yargıtay 4.Hukuk Dairesi. 2021/14891 E. 2022/3393 K. https://karararama.yargitay.gov.tr/
16. Yargıtay 4.Hukuk Dairesi. 2022/8500. E. 2024/5412 K. https://karararama.yargitay.gov.tr/

**Аскерханов Рамазан Махир оглу,**
магистрант II курса по специализации «Гражданское право» кафедры
частного права юридического факультета Анкарского университета Республики Турция

## ЗАМЕТКИ К ПОСТАНОВЛЕНИЮ ПЛЕНУМА ВЕРХОВНОГО СУДА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ОТ 24 ДЕКАБРЯ 2025 ГОДА «О ЗАЩИТЕ ЛИЧНЫХ (ПЕРСОНАЛЬНЫХ) ПРАВ»

### РЕЗЮМЕ

Понятия морального вреда и компенсации морального вреда не получили комплексного регулирования ни в гражданском законодательстве Азербайджанской Республики, ни в доктрине гражданского права. Основания возникно-

вения морального вреда, порядок определения компенсации морального вреда, а также иные связанные с этим вопросы имеют существенное значение для теории гражданского права и судебной практики. Постановление Пленума Верховного Суда Азербайджанской Республики 2008 года «О практике применения судами законодательства о возмещении морального вреда» не содержало всестороннего регулирования института морального вреда, что обусловило возникновение ряда неопределенностей в судебной практике. В этом контексте Постановление Пленума Верховного Суда Азербайджанской Республики от 24 декабря 2025 года «О защите личных (личностных) прав» имеет важное значение для развития института морального вреда. В статье проводится всесторонний анализ нового Постановления Пленума и приводятся различные доктринальные подходы. В частности, осуществляется сравнительно-правовой анализ отдельных теорий, отражённых в доктрине гражданского права Швейцарии и Турции, а также сопоставление указанных теорий с позицией Пленума. Кроме того, в исследовании в теоретическом аспекте рассматриваются особенности морального вреда, возникающего вследствие нарушения различных личных прав. Особое внимание уделяется двухэтапному методу определения размера компенсации морального вреда, его значению и сущностным характеристикам, а также анализируется его применимость для национальной доктрины гражданского права и судебной практики. Кроме того, в статье отдельно проводится сравнительно-правовой анализ целей компенсации морального вреда и целей, сформулированных в Постановлении Пленума. Также в статье отражаются замечания относительно отдельных позиций Пленума Верховного Суда Азербайджанской Республики. Предполагается, что настоящее исследование внесёт значимый вклад в развитие доктрины гражданского права Азербайджанской Республики и будет способствовать совершенствованию научных исследований и судебной практики.

**Asgarkhanov Ramazan Mahir,**
2nd year master's student, "Civil Law" specialty, "Private Law" Department,
Faculty of Law, Ankara University, Republic of Turkey

## NOTES ON THE PLENUM DECISION OF THE SUPREME COURT OF THE REPUBLIC OF AZERBAIJAN DATED 24 DECEMBER 2025 "ON THE PROTECTION OF PERSONALITY RIGHTS"

### SUMMARY

The concepts of non-pecuniary damage and non-pecuniary compensation have not been comprehensively regulated within the civil legislation of the Republic of Azerbaijan or in Azerbaijani civil law doctrine. The grounds for the occurrence of non-pecuniary damage, the determination of non-pecuniary compensation, and other related issues are of great significance for civil law theory and judicial practice. The Plenum Resolution of the Supreme Court of the Republic of Azerbaijan dated 2008, entitled "On Judicial Practice in the Application of Legislation on Compensation for Non-Pecuniary Damage," did not provide a comprehensive regulation of non-pecuniary damage, which led to a number of ambiguities in judicial practice. In this regard, the Plenum Resolution of the Supreme Court of the Republic of Azerbaijan dated 24 December 2025 "On the Protection of Personality Rights" constitutes an important development for the institution of non-pecuniary damage.

Thew article provides an in-depth evaluation of the new Plenum Resolution and presents various doctrinal viewpoints. In particular, certain theories reflected in Swiss and Turkish civil law doctrine will be comparatively analyzed alongside the position adopted by the Plenum. Furthermore, the study will theoretically examine the specific characteristics of non-pecuniary damage arising from the violation of different personality rights. Special attention will be given to the two-stage method of calculating non-pecuniary compensation, its significance and conceptual foundations, as well as its suitability for Azerbaijani civil law doctrine and judicial practice. In addition, the objectives of non-pecuniary compensation and the purposes articulated by the Plenum will be subjected to separate comparative legal analysis. The article will also include observations regarding certain positions expressed by the Plenum of the Supreme Court of the Republic of Azerbaijan. It is expected that this article will make a meaningful contribution to the development of Azerbaijani civil law doctrine and will positively influence both legal scholarship and judicial practice.

**Redaksiyaya daxilolma tarixi: 20.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 22.01.2026**
**Çapa qəbul olunma tarixi: 25.01.2026**